**TAHİR ƏMİRASLANOV**
**Tarix elmləri üzrə fəlsəfə doktoru**
**amiraslanovtahir@mail.ru**

# 5 – ƏLA

## Xülasə

Dünyada bir çox möcüzələr var. Bu möcüzələrdən biri də aşkarda gizlənənlərdir.5 barmaqdan ibarət olan əl əladır.Buna görə də 5 əladır.Yalnız onu deyək ki,“beş” rəqəmi başlanğıc, ilk kişilik rəqəmini 3 və ilk qadınlıq rəqəmini “iki” birləşməsindən doğulur, ona görə də pifaqorçular onu nigah rəqəmi adlandırırlar.Beləliklə 5 rəqəmi yüksəklik, alilik rəmzi kimi hər yerdə keçir. Ekstrasenslər də insan bədənindəki informasiyanı əlləri ilə qəbul edib ötürür, əlləri ilə müalicəvi təsir göstərirlər. Məsələ ondadır ki, əllər ən hissiyyatlı orqanlardır.

Beş rəqəminin özüylə münasibətində heç vaxt qeyri mükəməllik və yad bir şey doğmur .Müəyyən qanunauyğunluğa tabe olur: o ya özü özünü doğur və ya daha mükəmməl özünə məxsus on rəqəmini yaradır. Seyid Yəhya Bakuvi Elmin və Alimin Fəzilətlərindən yazarkən qeyd edir. Beş şeydə alim, əməl sahibindən üstündür.

Birincisi: Ən xeyirli əməl elm ilə olar. Elmsiz əməl faydasızdır.

İkincisi: Əməlsiz elm fayda verir, lakin elmsiz əməl fayda verməz.

Üçüncüsü: Əməl lazımdır. Elm isə əməl üçün şərtdir. Elm ilə əməl işıq və çıraq kimidir.

Dördüncüsü: Alimlərin məqamı nəbilərin məqamıdır. Əməl sahiblərinin məqamı isə övliyaların məqamıdır.

Beşincisi: Elm Allahdandır,əməl isə quldandır.

Hər ədəd altında bir sirr gizlənir.

**Açar sözlər:** beş, əla, yüksək, Allah, say, din, inanc.

**Saat neçədir? artıq demək olar ki 5.**
**Mən bu rəqəmə yeri gəlmişkən pərəstiş edirəm.**
**Leyla Əliyeva (28 iyun 2016-cı il) (tərcümə T.Ə.)**

Çox qəribədir ki, bu gənc şairədə bu şüurlu və ya şüuraltı müdriklik haradandır. Əslində şairənin rus dilində işlətdiyi “обожаю” daha geniş anlamdadır. Yəni “sevirəm”, “pərəstiş edirəm”, “səcdə edirəm” anlamlarını birləşdirir. Və sətri mənada bu söz “ilahlaşdırıram” deməkdir.

Niyə şairə 5-ə люблю (sevirəm), поклоняюсь (səcdə edirəm) və s. deyil, məhz “обожаю” (sevə-sevə ilahiləşdirirəm) deyir. Axı bu rəqəm (5) başqalarından nə ilə fərqlənir ki?!

Dünyada bir çox möcüzələr var. Bu möcüzələrdən biri də aşkarda gizlənənlərdir.

Aşkarda gizlədilənlərdən biri də 5 rəqəmidir. Bu rəqəm dilimizdə həm də əla adlanır. Görəsən niyə 3, 7, 12, 40 və s. rəqəmlər deyil məhz 5 rəqəmini əla hesab edib əcdadlarımız?! Rus dilində də 5-ə “otliçno” yəni, fərqli “yüksək” deyirlər.

Məktəbdə də bizə əla qiymət yazanda 5 yazırdı müəllimlərimiz. 3 kafi idi, 4 yaxşı, 5 isə əlaydı. Rus dilində də 5 rəqəminə həm “pyat”(beş), həm də otliçno (fərqli) deyirlər. Görəsən səbəbi nədir? Niyə bu rəqəm belə fərqlidir?! Nizami Gəncəvi də daxil olmaqla sonra gələnlərin çoxu “xəmsə” yəni beşlik yaratmağa çalışdılar, bəziləri buna nail oldu. Niyə məhz “xəmsə”?! Niyə üçlük, dördlük, altılıq və s. yox məhz beşlik, bunun səbəbi nə idi?! Niyə Nizami ilk əsərində, “Sirlər xəzinəsi”ndə Məhəmməd Peyğəmbərə 5 gözəlləmə yazıb? Bu nəyə işarədir?

Seyid Yəhya Bakuvi Elmin və Alimin Fəzilətlərindən yazarkən qeyd edir. Beş şeydə alim, əməl sahibindən üstündür. (1,51)

Birincisi: Ən xeyirli əməl elm ilə olar. Elmsiz əməl faydasızdır.

İkincisi: Əməlsiz elm fayda verir, lakin elmsiz əməl fayda verməz.

Üçüncüsü: Əməl lazımdır. Elm isə əməl üçün şərtdir. Elm ilə əməl işıq və çıraq kimidir.

Dördüncüsü: Alimlərin məqamı nəbilərin məqamıdır. Əməl sahiblərinin məqamı isə övliyaların məqamıdır.

Beşincisi: Elm Allahdandır, əməl isə quldandır.

Yenə də Seyid Yəhya Bakuvi "Mərifət" sözünün ərəbcədən 5 hərfdən ibarət olduğunun deyərək bu əlamətin yüksəkliyindən danışır.

"Mim" hərfi arifin nəfsində məlamət əhli olmasına işarətdir.

"Eyn" hərfin onun Eybinə işarətdir.

"Ra" hərfi Allah Təalanın məxluğuna Rəhmət göstərməyinə işarətdir.

"Fa" hərfi Allahın qüdrəti ilə nəfsinin eyblərinə qarşı Fətalığa işarətdir.

"Ha" hərfi Nəfsinin Həvasına, yəni dəyərsizliyinə işarətdir.

Niyə Seyid Yəhya bu və başqa beşlikləri ortaya qoyur?

Plutarx "Süfrəarxası söhbətlər" kitabında "5" badə-hə, "3" badə-hə, "4"-yox qaydası haqqında" ayrıca bir fəsil yazır. Niyə "5" badə-hə?

Öz dilimizdə də bununla səsləşən bir ifadə var. Çayın biri qaydadı, ikisi cana faydadı, üçü bəsdi, dördü nəhsdi, çatdı beşə, çıx (vur) on beşə. Niyə belə deyirik?

Niyə adada tək qalan Robinzon Kruzonun yanına Daniel Defonun təfəkkürü məhz Cüməni, yəni beşinci günü, rusca desək Pyatnitsanı gətirir? Niyə şənbəni, çərşənbəni və s. gətirmir?

Qəribə deyilmi beş rəqəminin belə yüksəldilməsi?!

Qəribəliklərdən biri də odur ki, Uca Allahımız müsəlmanlara gündə 5 dəfə namaz qılmağı buyurdu. Müsəlmanların birgə namazını beşinci günə-cümə gününə saldı. Məhz cümə-beşinci gün namazı müsəlmanları bir-biri ilə görüşdürən, bir amalda, bir duada birləşdirən dini faktora çevrildi.

İngiliscə 5-ci günə Friday-yəni boş, pulsuz, müftə, azad gün deyirlər. Əslində xristianlar üçün bazar günü, yahudilər şənbə günü boş, işdən, dünyəvi problemlərdən azad gün olsa da ingilislər nədənsə bu adı müsəlmanların mənəvi birlik gününə veriblər. (2,45)

Beləliklə 5 rəqəmi yüksəklik, alilik rəmzi kimi hər yerdə keçir.

Bütün bunların əsasında duran ehtimal ki, 5 ədədini insanla bağlılığı, əlaqəsidir.

İnsan gövdəsindən 5 çıxıntı var. İki əl, iki ayaq və baş. Hər çıxıntıda da beşlik çıxıntılar var. Hər əldə və hər ayaqda 5 barmaq var. Başda 5 çıxıntı iki qulaq, iki göz bəbəyi və bir burun. Başda 5 dəlik var- 2 qulaq, 2 burun dəliyi və ağız. İnsanda 5 hissiyyat var. Görmə, iy bilmə, dad duyma, səs duyma və təmas (lamisə).

Əgər nəzərə alsaq ki, bütün qədim dillərdə yalnız samitlər yazılır, saitlər və H hərfi, onun keçidləri (X, Q) yazılmır. Beş sözü sadəcə beş kimi yazıldığından beşdən sonra həm də baş və boş kimi yazılır. Başda olan 5 görülən boşluq (dəlik) barəsində yazdıq.

Saitlərin və "H" hərfinin yazılmadığını nəzərə alsaq, "bş" sözünü yəni "beş" sözünü həm də "behiş" kimi səsləndirmək olar. "Behiş" danışıq dilimizdə behişti, cənnəti bildirdiyindən 5 rəqəminin cənnətlə bağlılığını düşünə bilərik. Əslində üç ədəd 6 rəqəminin şeytana bağlanması (666) mövcuddur. 13 rəqəmini bir çox xalqlar nəhs rəqəmi hesab edirsə, onlara qarşı "5" rəqəminin cənnətlə bağlılığını düşünsək, bu rəqəmin niyə əla olduğuna bir cavab da tapa bilərik.

Beşin baş olması fikrimizcə onu əla edir, bütün başqa-yəni başdan qeyri rəqəmləri fərqləndirir. (2,95)

Ona görə ki, ağıl başdadır və əla qiymət ən ağıllı başa yəni beşə verilir. Amma baş boş olanda ona beş verilmir. Çünki beş ya boş ya da baş olur. 5 baş olanda əla olur. Əla sözü yalnız "L" kimi yazılır. Saitləri əlavə etməklə bu sözdən "əl" (ovuc və 5 barmaq) sözü yaranır. Yəni əla əslində əldir, 5 barmaqdan ibarətdir. Əla əli göstərir. Ələm (bayraq) da əl formasındadır.

Yusif peyğəmbər (ona bizdən salam olsun) vəhy mələyindən bilgi istəyəndə vəhy mələyi ona -"Ya Yusif, əllərinə bax və söylə hər əlində neçə barmaq və neçə uy var". - "Ya mələk, hər əlimdə 5 barmaq və 14 uy var" deyə Peyğəmbər cavab verir. - "Ya Yusif, dünyanın bütün bilgiləri əllərindədir" deyə vəhy mələyi cavab verir. (4,35)

Sonrakı dövrdə xiromantlar buna əsaslanıb, əllərə baxıb xəbər verirdilər.

Bütün dillərdə insanlar əllərini gözlərinin önünə gətirib dua edirlər. Bu zaman əllər antena rolunu oynayır. Iki beş başdan gələn məlumatı alıb kainata, uca Allaha, Allahdan gələn məlumatı isə başa ötürürlər. Deməli kainatla əlaqə quran "beşlərdir".

Ekstrasenslər də insan bədənindəki informasiyanı əlləri ilə qəbul edib ötürür, əlləri ilə müalicəvi təsir göstərirlər. Məsələ ondadır ki, əllər ən hissiyyatlı orqanlardır. əllərin içərisində çoxlu kapilyarlar var və bu kapilyarlarda qan axır. Harda axın varsa onun ətrafında mütləq cərəyan, elektromaqnit və digər sahələr yaranır.

Müalicə etmək, ağrıları götürmək üçün təcrübələrimdə əllərimi 3-7 dəqiqəlik buzun üzərinə qoyuram. Əllərimi soyuqdan mühafizə etmək üçün orqanizm əllərimə daha çox qan göndərir, qan əllərimdə daha sürətlə hərəkət edir. Kapilyarlardakı qanın hərəkəti əllərimdə daha güclü elektromaqnit və digər sahələr yaradır.

Bu o qədər güclü olur ki, bu sahələrin enerjisi istiliyə çevrilir, əllərdən sanki od çıxır. İnsan bədəninə yaxınlaşdıranda insanın harasından soyuq gəldiyini belə əllər hiss edir. Soyuq gələn yeri toxunmadan sığallayanda o yer isinir, soyuq bitəndə ağrı yoxa çıxır. Təxminən eyni müalicə üsulunu fizioterapiya kabinetlərində həkimlər də istifadə edir. Sadəcə oradakı cərəyanlar, sahələr texniki vasitələrlə yaradılır. Yəni bu zaman sadə fizika qanunları işləyir. (4,58)

İnsan dərindən düşünəndə iki əli ilə başını tutur. Üç (iki əl və bir baş) beş hissiyyatı sakitləşdirib, düşüncəni istiqamətləndirir, xəyalı dərinləşdirir. Çətin anda stressə məruz qalanda özündən olmayaraq insan əlləri ilə başına vurur, qan təzyiqini bununla nizamlayır, insultdan özünü xilas edir.

Əllərində təsbeh çevirmək, barmaqlardakı üylərə toxunaraq zikr etmək də qan dövranına qan təzyiqinə müsbət təsir etməyə, sakit axarlı düşüncə üçün şərait yaratmağa hədəflənir. Buna görə də əl həm də al-dır, yəni informasiya alandır. Digər tərəfdən elə buna görə də əl həm də qırmızı qan rəngində aldır, çünki qırmızı qanı tənzimləyir. Baş kimi əllər də biliklə bağlı olduqları üçün onları bədənə birləşdirən hissəyə "bilək" deyilir. Bilik isə həmişə əladır-beşdir. Buna görə də mühazirələrdə tələbələrə mütləq yazı yazdırılır. Əslində ən yaxşı yaddaş mexaniki yəni əl yaddaşıdır. Mühazirə zamanı səs (qulaq) yaddaşı, göz yaddaşı və əl yaddaşı bir yerdə işləyir. Kitab oxuyanda qələmsiz oxumaq olmaz, elə kitabda daha yaxşısı isə bir dəftərdə qeydlər aparmaq çox yararlıdır. Kitab vərəqlərinin kənarlarında qeydlər aparmaq mənə daha rahat gəlir.

Əl həm də al olduğu üçün ondan alov (istilik) çıxır.

Əl həm də el-dir yəni el-oba mənasında ən sıx ünsiyyətdə olan, tez-tez görüşə bilən, bir-birinin əlini sıxa bilənlərin əl-ələ verənlərin ünsiyyət vasitəsidir. Əllər sevənlər arasında da ən gözəl ünsiyyət vasitəsidir.

Əl həm də il-dir yəni zaman ölçüsüdür. İnsan yaşlandıqca bu illər əldə toplanır və əllərdə özünü daha çox biruzə verir. Bu mənada əl həm də ol-dur, var olmaqdır, həm də öl-dür, ölü-dür yox olmaqdır.

Əl həm aladır, əslində əladır. Mahnılarımızdakı kimi "gözlərin aladır (əladır) yar" yəni gözlərin gözəldir yar.

Əl həm də ulahdır, ulu-dur. 5 barmaqdan ibarət olan əl (ol, öl, al, el, ulu, ilah) əla-dır. Buna görə də 5 əladır. (4,265)

Islami dəyərlərimizdə əla ((yalnız "L") yazıldığındandır) həm də "Əli"-dir ,həm də İlah, ilahi, Allahdır. Buna görə də, sufizmdə Əli əladır, seçilən, fərqlənən, üstün, yüksəkdir. Və əla rəqəm kimi 5(beş) ilahi göydən gələn rəqəm, Allaha və Əliyə aid rəqəm hesab edilir.

Plutarx ""E" və Delflər barədə" əsərində 5 rəqəminə xüsusi diqqət yetirir. (səh 178; 179; 180)

Plutarx "E" hərfinin "Apallona" həsr edildiyini, Apallona aid edildini yazır. Plutarx yazır ki, özü özlüyündə "E" hərfi başqa hərflərdən nə yazılışı, nə də səslənməsi ilə fərqlənmir. Amma onun dəyəri başqa rəqəmlərdən üstün olan beş rəqəmini ifadə etməsi ilə bağlıdır. Ona görə ki, müdriklər hesablamaq (saymaq) felini – "beşliklərlə hesablamaq (saymaq)" kimi dilə gətirirlər.

Hər bir rəqəm cütə və təkə bölünür, bir isə hər ikisinə aiddir (belə ki tək rəqəmə əlavə ediləndə onu cüt, cütə əlavə ediləndə onu tək rəqəmə çevirir) 2 rəqəmi cüt rəqəmlərin, 3 isə tək rəqəmlərin başlanğıcı hesab edilir, 5 rəqəmi isə bu ilk iki başlanğıcın birləşməsindən əmələ gəlir. Ona görə də təbii ki, o xüsusi rəğbətə layiq hesab edilir, çünki iki başlanğıcdan əmələ gələn ilk rəqəmdir və nigah (ailə T.Ə.) rəqəmi hesab edilə bilər çünki qadınlığa uyğun olan cüt və erkəkliyə uyğun olan tək rəqəmdən əmələ gəlib... Buna görə də tək rəqəm daha çox istehsalçıdır. Nəinki cüt rəqəm.

Yalnız onu deyək ki, "beş" rəqəmi başlanğıc, ilk kişilik rəqəmini (üç) və ilk qadınlıq rəqəmini ("iki") birləşməsindən doğulur, ona görə də pifaqorçular onu nigah rəqəmi adlandırırlar. (Digər tərəfdən düşünmək olar ki, belə olan tərzdə "5" həm də ilkin aləmi, bədənindən hələ Həvva ayrılmamış bütöv Adəmi və ya eyni zamanda Həvva ilə yenidən birləşməmiş son Adəmi ifadə edir. Çünki nigah da elə bu bütövləşən Adəmin ifadəsidir. T.Ə.) Ola bilsin ki, buna görə də bunu təbii rəqəm adlandırırlar. Çünki özünə vuran zaman o cavabı yenə özüylə bitirir. Eynilə onun kimi də təbiət buğdanı dəndə alıb və onu həzm edir, dərinliklərdə onu müxtəlif formalara və görkəmlərə salaraq əmələ gəlmə prosesini sona çatdırır. Sonra isə hamıya yenə buğda göstərir. Beləliklə onu yenə əvvəlki, ilkin formasına qaytarır.

Beş və altı yeganə rəqəmlərdir ki, özünə vuranda cavabın sonunda yenə özlərini yaradır və saxlayırlar. Amma onlardan 6 əgər bu nəticəni yalnız bir dəfə ikinci dərəcəyə (kvadrata) yüksəldəndə verirsə, 5 rəqəmi daimi olaraq ya özü ilə ya da 10 rəqəmi ilə cavabı sonluqlayır. Beləliklə sona qədər ona görə ki, bu rəqəm (5 T.Ə.) özündə bütün kainatı təşkil edən başlanğıcı ilki təkrar edir. Axı bu kosmosu özündə ehtiva edir, kosmosdan yenə özünə qayıdır. (6,58)

Beş rəqəminin özüylə münasibətində heç vaxt qeyri mükəməllik və yad bir şey doğmur. Müəyyən qanunauyğunluğa tabe olur: o ya özü özünü doğur və ya daha mükəmməl özünə məxsus on rəqəmini yaradır.

Hər halda aydındır ki, ilahla(Appalon nəzərdə tutulur T.Ə.) və 5 rəqəmi arasında uyğunluq tapırlar, o gah oda bənzər təmiz halda özünü göstərir, gah da özündən kosmosu ifadə edən 10 rəqəmini ayırır.

Musiqi Allaha xoş gələn şeylərdən olduğu üçün biz hesab etmirikmi ki, o (musiqi T.Ə.) bu rəqəmlə münasibətdədir?! (6,258)

Harmoniyanın əsası belə demək mümkünsə səslərdədir. Onlar isə beşdir, artıq deyil. Bunu istəyən simlərdə yaxud fleytanın deşiklərində mühakimə yürütmədən hiss edə bilər. Axı səslər də rəqəmlerin nisbətindən doğur. Birinci səsin dörd səslənmədən sonrakı hesabı epitritdir. İkinci səsinki 5 səsdən sonra hesabı tempoludur. Üçüncünün hesabı ikiqat səs bütün səslərdən, hər

şeydən keçən hesab və beşdən sonra üç qat, dörd qat isə odur ki, iki dəfə bütün səslərdən keçir. Musiqini bilən adamlar bu dörd intervala ritmnən çıxan daha birisini əlavə edirlər ki, o hər şeydən və bu dörddən keçir amma bunu, bu səsi qayda kimi qəbul etmək olmaz. Mən burada tetroxordların 5 pozisiyada və ilk beş tonda ya ladda dayanmayacağam. Onları harmoniya adlandırmaq daha düzgün olardı. Var olan çoxluqdan daha doğrusu saysız intervallardan yalnız beşi: diez, yarımton, ton, bir yarım ton, iki ton musiqi deyilmi?!... Platon deyir ki, kosmos vahiddir, birdir. Amma fərz etsək ki, ondan başqaları da var, o tək deyil, onda onlar beş olacaq, artıq olmaz. Amma Aristotel demişkən kosmos tək və vahiddir. Onda bu beş dünyadan formaşıb. Onlardan biri yerdir. O biri su dünyasıdır, üçüncü, dördüncüsü hava və od dünyasıdır. Beşinci isə səmadır. Buna görə də Platon təbiətdə ən mükəmməl olan həndəsi fiqurları: piramidaları, kubu, oktaedri, eykosaedri və dodekaedri görüb, hər birini uyğun dünyaya aid etdi. Az qaldı ki, biz Homerin yanından keçək, sanki birinci olaraq kosmosu beş hissəyə o bölməyib: ortadakı üç hissəni Allahlara, iki qıraq hissələri Olimpi və yeri bölünməz və hamıya ayırıb. Beləliklə bu rəqəm yalnız ikidən və üçdən törəməyib, həm də ilkin elementlərdən törəyib. Bütün rəqəmlərin başlanğıcı birdir, ilk kvadratsa dörddür. Bu ikisindən forma və materiya kimi beş əmələ gəlir. Bəziləri düzgün olaraq hesab edirlər ki, bir ilk kvadratdır. Yəni özünə vuranda bir alınır, onda beş rəqəmi iki ilk kvadratdan əmələ gəlib ki, bu da onun ali mənsəbliliyinə xələl gətirmir.

Plutarx "İsida və Osiris barədə" əsərində yazır ki, Qelios biləndə ki, Reya xəlvətcə Kronla nigaha girib, qarğış etdi ki, o (Reya) heç bir ayda və heç bir ildə doğmayacaq. Onda ilahəyə (Reyaya) vurğun olan Hermes onunla yaxınlıq elədi, sonra isə ayla şaşki oynayaraq ondan onun hər siklinin 17-dən bir hissəsini udub onlardan 5 gün düzəltdi və onları qalan 360 günə əlavə etdi və o vaxtdan misirlilər bu beş günü "calaq" və "allahların doğulduğu günlər" adlandırırlar.

Plutarxın yazdığı əfsanəyə görə birinci gün Osiris, ikinci gün Arueris bəziləri ona Apallon, bəziləri Qor deyir, üçüncü gün Tifon, amma qeyri adi yolla anansının böyrünü vurub çıxdı. Dördüncü gün İsida , beşinci gün Neftida doğuldu ki, onu da Sonluq yaxud Afrodita, bəziləri isə Qələbə adlandırırdılar.

Yəni Plutarx demək istəyir ki, bu beş gündə 5 Allah dünyaya gəldi. Yəni Allahlar zamansızlıqda doğdular.

Koroğlu dastanında Koroğlu Gizir oğlu Mustafa bəy barəsində belə bir ifadə işlədir.

Kaş əzəldən eş olaydıq
Anadan 15 alaydıq
Əvvəldən qardaş olaydıq
Gizir oğlu Mustafa bəy!

İzmirdə Türk Dünyası Araşdırmalar İnstitutunun banisi Türkmən bəyin açıqlamasına görə "Anadan on beş olaydıq" (əslində alaydıq T.Ə.) ifadəsi ana südünün ilk on beş gününə, ağız südünə aiddir. Plutarxa və digərlərinə görə 10 rəqəmi (5+5) kosmosu ifadə edir. 5 isə vahid Adəmin (Həvva bətnindən ayrılmamış və ya artıq birləşmiş Adəmin) simvoludursa onda 15 kosmos və Adəmin vahidliyini əks etdirir. Ana südünün kainat, nəsil haqqında tam məlumat ötürücüsü, informasiya daşıyıcısı olduğunu elmi işlərimizdə sübut etmişdik. Bizim qədim adətlərimizdə ailə qurulanda, oğlan evi qızın anasına "süd pulu" ödəyirdi. Bu məbləğin digər adı "başlıqdır". Dediyimiz kimi əslində saitlər yazılmadığından baş həm də "beşdir-əladır". Bəlkə də Ana südünün müqəddəsliyinə görə qız anasına əslində "əlalıq"-"beşlik" pulu, ödənişi verilirdi. (5,66)

Belə çıxır ki, Koroğlu ilə Mustafa bəyin birləşməsi anadan 15 olmaları kosmosla Adəmin birləşməsidir, bütövlük kainatın əvvəlki halına, gücünə malik olmasıdır. Biz əvvəlki yazılarımıza mənbələrə istinadən Koroğlunun əslində Qoroğlu, Qorqud oğlu olduğunu,

Qorqudun isə ilahi başlanğıclıqla, Peyğəmbərliklə bağlı olduğunu bildirmişdik. Belə olan halda Mustafa adının da sonuncu Peyğəmbərimizə aid edildiyini nəzərə alsaq, söhbət burada Peyğəmbərlərin güclərini birləşdirməsindən, əzəli gücü əldə etməklərindən bəhs edilir. Elə həmin şeirdə Koroğlu belə davam edir.

Bir atlı var Alapaça
Aman vermir Qırat qaça
Şeşpərinin ucu haça
Gizir oğlu Mustafa bəy. (5,185)

Koroğlunun 2 əla (5), fərqli atı var idi-Qır at və Dür at. Qır at zülməti, gecəni bildirir, Dür at isə işıqlı gündüzü. Yəni Koroğlunun atları əslində 10 rəqəmini-kosmosu ehtiva edir.

Mustafanın atı Alapaça isə bir əlanı (5-i) alatoranı, gecə ilə gündüz arasındakı zamanı, keçidi özündə birləşdirir. Ona görə Alapaça (Alatoran) Qırata (gecəyə) qalib gəlir. Bu üç atın, üç əlanın birləşməsi də 15-i verir ki, bu da fikrimizi kosmosla Adəmin birləşməsini təsdiqləyir. Əgər Mustafa adı sonuncu Peyğəmbərimizə işarə edilirsə, onda Alatoranlıq Peyğəmbərimizin merac atıdır. İki dünya (maddi və mənəvi) arasındakı keçidi təmin edəndir.

Yenə də Alapaçanı işarələdiyi Alatoran da qaranlıqdan işığa keçidi, mənəvi dünya (zülmət) ilə maddi dünyanı (işığı) birləşdirən körpünü ehtiva edir.

Burada İncilin ilk sətrini xatırlamaq istərdik:

“Dünya Zülmət içindəydi və Müqəddəs ruh Elovim Zülmət üzərində bərqərar idi. O dedi: Qoy işıq olsun. Dünya işıqlandı.”

Beləliklə Koroğlunun Mustafa ilə anadan 15 almaq istəməsi, 3 əlanın (3x5) birləşdirilməsi, kosmosla Adəmin birliyi mənasındadır ki, burada da 5-in əla olduğunu görürük.

Koroğlunun Mustafa ilə birləşib bir anadan əkiz doğulub qardaş olması, bir ananın südünü içmələri onları bir yürgəhdə, bir nənnidə birləşdirəcəydi. Yürgəyin, nənninin bir qədim adı da dilimizdə “beşik” adlanır. “Beşik” sözü dilimizdə həm də bir əlayıg mənasını verir. Koroğlu (bir əla-5) və Mustafa (bir əla-5) Beşiyə (bir əla-5) onlar 3 əla, üç beş birləşib yenə 15-i böyük birliyi, gücü yaratmalıydılar.

Koroğlu əslində bu tərifnamədə Kosmoqolik birliyə, özlərinin bu birliyin maddi dünyadakı əksləri olduğunu bildirir. (2,258)

XVI əsrin ən böyük sufilərindən biri Seyid Yəhya Bakuvi “Şəfa əl Əsrar” əsərində Şeyxliyin Əsasları bölməsində Beşinci babda (məqamda) yəni, xacə məqamında Şeyxin Allahın fərmanı ilə “xacə”-yə əsa verməsindən danışır.

Və indiyə qədər Peyğəmbərlərə verilmiş 10 əsadan söhbət açır. Seyid Yəhyaya görə:

I əsa Adəm Əleyhissalamın əsasıydı ki, bu əsa Cənnətdən ayrıldığı, Adəm isə qovulduğu üçün ağlayırdı. Əsa Adəm Peyğəmbəri yırtıqlardan qoruyardı.

II əsa İdris Peyğəmbərə verilmişdi. Əsa ona kitabdakıları xatırladar, o da əsa vasitəsiylə dərs verərdi.

III əsa Nuh Peyğəmbərin əsasıdır. Qövmünün həlak olacağını Nuha əsası xəbər verdi. Əsanın altından və üstündən qara su axırdı.

IV əsa İbrahim Peyğəmbərin əsasıydı ki, Cənnət reyhanından idi. Əsa İbrahimin əlində yaşıla dönürdü.

V əsa İshaq Peyğəmbərin idi. Oğlu Yaqubun dünyaya gəldiyini əsanın gülməyindən bilmişdi.

VI əsa Yaqubun əsasıydı. Əsa ağlamaqla Yusifin ayrılığını bildirdi.

VII əsa Musanın əsasıdır. Lazım gələndə ilan olurdu.

VIII əsa Süleymanın əsasıdır. Əsanı gördüyü zaman bilirdi ki, duası qəbul edilib.

IX əsa İsanın əsasıdır. Əsa xəyanət olacağını öncədən xəbər verdi.

X əsa Məhəmməd Əleyhissalamın əsasıydı. Aclıq anında yaşıllaşıb xurma verdi. Taif döyüşü günündə qılınca çevrildi.

Beləliklə Seyid Yəhya bizə 5-ci məqamda (bir əlada), 10 möcüzə (iki əla) əsadan xəbər verir ki, burada biz kosmos (10) və Adəm (15) vəhdətini, yəni 15-i görürük.

Biz burada da 5 rəqəminin yüksək tutulduğunu görürük. Hesab edirik ki, Sirlər xəzinəsində qədim filosofların dünya görüşlərini ortaya qoyan Nizami Gəncəvi bu filosofların beş rəqəminə olan münasibətlərini bilməmiş deyildi. Bəlkə də xəmsənin hər bir əsəri elə bu 5 allahın simvolizə etdiyi ilahi fəlsəfəni, ehtiva etdikləri təbii qüvvələri və estetikanı əks etdirir.

Bunları Nizami Gəncəvinin əsərlərinin adından görmək olar. Sirlər Xəzinəsi, Xosrov və Şirin, Leyli və Məcnun, Yeddi gözəl, İskəndərnamə. Məsələn Leyli və Məcnun özündə Osirisi və İsidanın sevgilisini əks etdirə bilərdi. Onlar bir birini oqədər sevirdilər ki, artıq analarının qarnında birləşmişdilər. Osirisin yer altı dünyanı idarə etməsi, parçalanıb dağılması Məcnunun həyatını, İsidanın əzabları isə leylinin əzablarını ehtiva edə bilər. (6,87)

Əgər Şərəfnamədə İskəndər Tifona bənzəyirsə, döyüşkəndirsə, İqbalnamədə o daha çox gözəl və müdrik Apallona (Qora) bənzədilir. Yeddi Gözəl özlüyündə artıq Afroditanın (digər adı Qələbə və Sonluq) xüsusiyyətlərini əks etdirir. Sirlər Xəzinəsi isə ehtimal ki, İsidanın müdrikliyini və yaradıcılığını əks etdirir. Əslində bu bölgü Nizami Gəncəvinin ezoterik bilgiləri daha da dəqiqləşdirilə, əsaslandırıla bilər. Amma bu başqa bir mövzu olduğu üçün hələlik bu məqaləmizdən kənara çıxmaq istəməzdim.

Ola da bilsin ki, Şeyx Nizami və sonrakılar bu beşlikləri, xəmsələri məhz namazlara həsr ediblər. Hər namaza, onun böyüklüyünə bir əsər. Bəlkə də hər poemanın, bir namaza istinadı ilə hər əsərin əslində elə namaz olduğunu, şairin Allahla söbətinin, namazının nəticəsi olduğunu demək istəyiblər. “Axı bir saatlıq elm qiyamətdə 40 illik ibadətə bərabər tutulacaq”- fikrinə söykəniblər. Axı Quranda namazın forması göstərilməyib. Bəlkə bu əsərləri namazın bir forması hesab ediblər. Bəlkə də! Ola bilsin ki.. Bəlkə Səmavi kitablar şeirlə, nəzmlə gəldiyi üçün “xəmsələr” beşliklər də şeirlə yazılıb. Hər ikisinin eyni mənbədən – Allahdan gəldiyini göstərmək üçün bəlkə belə yazıblar! Əlbəttə ki, bunlar hər biri nəticəsindən asılı olmayaraq, ayrıca tədqiq edilməlidir.

Amma başqa cür də ola bilərdi. Nizami qədim filosofların əsərləri ilə tanış olduğundan Plutarxın “beşə”-əlaya olan münasibətindən də xəbərdar ola bilərdi. Və yaxud Musanın “beş kitabını” (Pyati knijie Moiseya) tanımamış olmazdı.

Digər tərəfdən “Kəlilə və Diminənin” əsl birinci adının sanskritdə “Rancatantra” - yəni “5 tantra” olmasından da Nizami və digərləri xəbərsiz deyildilər. (6,54)

Çin xalqının yaranması haqqında olan epik əsər “Çin (konfisian) beş kitabı” da məlum mənbələrdən idi.

Artıq yaxın tarixdə “Dostoyevskinin Böyük Beş kitabını” (“Великое пятикнижие Достоевского”) tərtib edənlər də (“Karamazov Qardaşları”, “Yeniyetmə”, “İdiot”, “Cinayət və Cəza”, “Şeytanlar”) beşliklərə bağlı bu tarixi faktlardan xəbərdar idilər.

Amma 5 bucaqlı ulduz işarəsi monoteist dinlərdən öncə də müqəddəs işarələrdən sayılırdı. Beləliklə axtardıqca 5 rəqəminin bütün sahələrdə kamillik göstəricisi, yüksək məqama, aliliyə, seçkinliyə malik olması ilə bağlı faktlarla qarşılaşırıq.

Ən əsası isə bu nəinki bizim şüurumuzda, hətta şüur altı qatda belə artıq özünə yer tutub.

Biz zaman və məkanla hasarlanmış şüurumuzun çərçivəsindən çıxmağa çalışdıq. Hasarın o tayından gördüklərimizi hasarın hasarın çərçivəsinə salmağa və bu çərçivədə anlatmağa çalışdıq.

Amma mütləq həqiqət sahibi icazə və imkan verdiyi, bizə təlgin etdiyi miqdarda.

Məqaləmizi böyük Azərbaycan filosofu Şeyx Mahmud Şəbustərinin “Gülşəni-raz” əsərindəki ifadə ilə bitirmək qərarına gəldim.

"Hər ədəd altında bir sirr gizlənir."

## Ədəbiyyat

1. Şah İsmayıl Xətayi "Əsərləri" "ŞƏRQ-QƏRB" Bakı-2005
2. " Koroğlu" Dastanı- "Lider Nəşriyyat"- Bakı 2005;
3. "Məlikməmmədin nağılı" Xalqın söz xəzinəsi; 1985.
4. Şəmsi Tebrizi- "Makalat" – "Ataç" İstanbul 2014
5. Е.Гасанов «Бог Един» Баку. Изд. "Elm və Təhsil" 1999-2016 г.
6. Firudin Gilar Bəg "Batini Quran" Bakı "Qanun", 2008, 794 səh.

Т. Амирасланов

5 – Отлично

## Резюме

В мире много чудес. Одно из этих чудес скрыто в ясности. Руки сделаны из пальцев. Вот почему 5 отлично. Давайте просто скажем, что цифра «пять» происходит с самого начала, номер первого лица 3 и первая женственность, «два», поэтому Пифагор называет это цифрой брака. Психики также передают информацию в теле человека и имеют терапевтический эффект на руках. Дело в том, что руки являются наиболее чувствительными органами.

Отношения между пятью фигурами не имеют ничего общего с чем-то экстраординарным. Существует определенное правило: оно либо приводит себя в порядок, либо создает более совершенную цифру «десять». Сейид Яхья Бакуви написал в своей книге «Добродетели науки и науки» работа: «Ученый превосходит пять вещей».

Первое: лучшее действие - это знание. Невежественный поступок бесполезен.

Второе: знание с делом приносит пользу, а дело без знания не приносит пользы.

Третье. Наука - это условие действия. Это как свет и лампа.

Четвертое: авторитет ученых - это положение набожных.

Пятое: наука от Бога, а дела - рабы людей.

Под каждой фигурой есть секрет.

**Ключевые слова:** пять, отлично, высшее, Бог, счет, религия, вера.

**T. Amiraslanov**

**5 – Excellent**

## Summary

There are a lot of miracles in the world. One of these miracles is hidden in clearness. Hands are made of fingers. That's why 5 is excellent. Let's just say that the figure "five" comes from the beginning, the first person's number 3 and the first femininity, "two", so the Pythagoras call it the marriage figure.Psychics also transmit the information in the human body, and have a therapeutic effect on their hands. The point is that hands are the most sensitive organs.

The relationship between the five figures has nothing to do with anything extraordinary.There is a certain rule:it either brings itself up or creates a more perfect "ten" digit.

Seyyid Yahya Bakuvi has written in his "the Virtues of Science and Scholar "work : "Scientist is superior with five things".

The First: The best action is by knowledge. The ignorant act is useless.

The Second: The knowledge with deed benefits, but deed without knowledge does not benefit.

The Third: Science is a condition for action. It is like a light and a lamp.

The Fourth: The authority of the scholars is the position of devouts.

The fifth: Science is from God, and deeds are people's slaves.

There is a secret under every figure.

**Key words:** five, excellent, higher, God, number, religion, faith.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi03.08.2019
Tarix elmləri doktoru İlhamə Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur